# “Clear Line” (Aydın Xətt)

## Avropa futbolunda hakim qərarları üzrə təlimat

“Clear Line” UEFA-nın hakimlik fəaliyyətinə həsr olunmuş video kitabxanadır; Oyun qaydalarının bütün Avropa üzrə ardıcıl şəkildə tətbiq edilməsinə kömək məqsədilə UEFA tərəfindən hakimlərə və Video Köməkçi Hakimlərə (VAR) verilən təlimatlara açıq çıxışı təmin edir.

***Platformanın ünvanı:*** UEFA.com/clearline

## “Clear Line”: Hakim qərarları necə qəbul edilir?

## Giriş

Hakimlər və Video Köməkçi Hakimlər (VAR) üçün təlimatlar daha şəffaf hala gətirilib. Bu da istənilən azarkeşlərə istər yerli liqalarda, istərsə də UEFA turnirlərində Oyun Qaydalarının necə şərh olunmalı və VAR-ın hansı hallarda müdaxilə etməli (və ya etməməli) olduğunu görməyə imkan verir.

## “Clear Line” nədir?

“Clear Line” Avropa futbolunda hakim qərarları ilə bağlı bələdçidir. Geniş oyun görüntüləri bazasına əsaslanan bu resurs uefa.com saytında müxtəlif oyun epizodlarına aid 150-dən çox hakimlik nümunələrini bir araya gətirib və hamı üçün əlçatandır.

Hər bir epizodda qəbul edilmiş qərar, qərarın necə və nə üçün verildiyi təsvir olunur. Bu yanaşma hakimlər və Video Köməkçi Hakimlər (VAR) üçün rəhbər tutulan prinsiplərə əsaslanır. Həmin prinsiplər vahid standart kimi 55 milli assosiasiyanın hakimlər komitələrinin rəhbərləri tərəfindən razılaşdırılıb.

**Nə üçün yaradılıb?**

Futbolda ən çox ünvanlanan sual hansı qərarın verilməsi deyil, onun məhz niyə verilməsi ilə bağlıdır. Azarkeşlər, oyunçular, məşqçilər və media eyni oyun epizodunu izləsələr də, fərqli nəticələrə gəlirlər. Qərarın arxasında duran səbəblər isə onlar üçün nadir hallarda aydın olur. Məhz bu boşluq çaşqınlığa səbəb olur.

“Clear Line” məhz bu məsələni həll etməyə çalışır. Qərarların necə verildiyi insanlar üçün nə qədər aydın olarsa, oyuna olan etimad da bir o qədər yüksək olar.

**Necə işləyir?**

Təhlil etmək istədiyiniz qərarı seçin - istər əllə oyun, istər oyundankənar vəziyyət, istərsə də kobud oyun olsun. Hakimin konkret olaraq nəyi qiymətləndirməli olduğunu müəyyənləşdirin. Daha sonra qərarın nə üçün verildiyini və həmin vəziyyətdə Oyun Qaydalarının necə tətbiq olunduğunu anlamaq üçün videoçarxı izləyin.

Çoxsaylı videolar və aydın izahatlar sayəsində “Clear Line” oyunun ən mürəkkəb və mübahisəli epizodlarının bir çoxunda qərarların qəbulu məntiqini anlamağa imkan verir.

## “Clear Line” qayda dəyişmir

“Clear Line” Oyun Qaydalarını dəyişmir; bu qaydalarla bağlı məsuliyyət IFAB-ın üzərindədir. Video kitabxana yeni epizodlar yarandıqda və ya əlavə izahata ehtiyac duyulduqda yenilənəcək. Bununla belə, o, hər bir matçla bağlı son qərarların xronoloji qeydini təşkil etmir.

## “Clear Line” mühüm istinad nöqtəsi rolunu oynayacaq”

UEFA-nın Hakimlər Komitəsinin rəhbəri Roberto Rozetti platforma barədə bunları deyib: “Clear Line” Avropa futbolundakı oyun rəsmilərinə aydın və dəqiq təlimatlar vermək məqsədilə hazırlanıb. Bu təşəbbüs müxtəlif yarışlarda qərarların qəbulu zamanı daha yüksək koordinasiyanın təmin edilməsini və oyunun xeyrinə olaraq VAR-dan istifadə yanaşmasını standartlaşdırmağı hədəfləyir.

Heç bir oyun epizodu digəri ilə tamamilə eyni olmasa və fərdi səhvlər qaçılmaz olsa da, “Clear Line” oyunçular, məşqçilər, şərhçilər və azarkeşlər üçün mühüm istinad nöqtəsi rolunu oynayacaq. Bu sistem hakim qərarlarının əsaslandığı məntiqi izah etməyə və qərarvermə prosesinin daha yaxşı anlaşılmasına töhfə verəcək”.

## “Clear Line”

“Clear Line” həm yerli, həm də UEFA yarışlarında Oyun Qaydalarının şərhi və VAR sisteminin nə vaxt müdaxilə etməli (və ya etməməli) olduğu ilə bağlı

ətraflı təlimatlar təqdim edərək, 150-dən çox hakimlik epizodunu bir araya gətirib.

Platforma VAR protokolunun əsas prinsiplərindən birini - video-baxışın yalnız aşkar və bariz səhvlər zamanı tətbiq edilməsi prinsipini gücləndirir.

Avropa futbolunda əsas məqsəd bu əhatəli resursu oyun rəsmiləri, oyunçular, məşqçilər, şərhçilər və azarkeşlər üçün əlçatan etməklə hakim qərarları ilə bağlı anlayışı gücləndirmək və Oyun Qaydalarının bütün idman növü üzrə daha vahid şəkildə tətbiqini təşviq etməkdir.

AFFA Azərbaycan daxilində hakim qərarları ilə bağlı "Clear Line" sistemini istinad kimi istifadə edəcək və onu azarkeşlərə, oyunçulara, məşqçilərə və mediaya təqdim edəcək.

Çoxsaylı videolar və aydın izahatlar sayəsində "Clear Line" oyunun ən mürəkkəb və mübahisəli epizodlarının bir çoxunda qərarların qəbulu məntiqini dərindən anlamağa imkan verir.

Platforma zaman keçdikcə təkmilləşməyə davam edəcək və yeni epizodlar yarandıqda və ya konkret epizodlarla bağlı əlavə izahatlara ehtiyac duyulduqda yenilənəcək.

## "Clear Line"ın cavablandırdığı sual

Avropa futbolunda tez-tez gündəmə gələn məsələ qərarların verilib-verilməməsi deyil, bu qərarların necə qəbul edilməsi və VAR-ın (Video Köməkçi Hakim sistemi) prosesə nə vaxt müdaxilə edəcəyidir. Məhz bu qeyri-müəyyənlik çaşqınlıq yaradır. "Clear Line" isə qərarların əsaslandırma

səbəblərini hamının görə biləcəyi şəkildə, vahid məkanda və sadə dildə təqdim etməklə bu məsələni həll edir.

**Nə qazandırır?**

• Vahid və ortaq istinad mənbəyi, 150-dən çox hakimlik epizodu. Beləliklə, Avropa futbolundakı assosiasiyalar, media, oyunçular, məşqçilər və azarkeşlər müxtəlif ziddiyyətli şərhlər əvəzinə, eyni izahlara istinad edə bilərlər.

• VAR-ın genişləndirilməsi deyil, məhdudlaşdırılması. Platforma vurğulayır ki, video-təkrardan yalnız aşkar və bariz səhvlər zamanı istifadə olunmalıdır.

• İnkişaf üçün nəzərdə tutulub. Yeni vəziyyətlər yarandıqda və ya müəyyən epizodlarla bağlı əlavə aydınlaşdırmaya ehtiyac duyulduqda yenilənəcək.

**Nə üçün vacibdir?**

İnsanlar qərarların necə verildiyini nə qədər aydın başa düşsələr, oyuna olan inam və həmin qərarları verən rəsmilərə göstərilən dəstək də bir o qədər güclü olar. “Clear Line” Oyun Qaydalarını dəyişmir və bütün mübahisələrə son qoymur. Bu, yekun cavab deyil, ardıcıllıq və ortaq anlayış istiqamətində atılmış bir addımdır.